**TRANSPARENCY INTERNATIONAL AZERBAIJAN**

**AZ 1009 Azerbaijan, Baku**
**J. Jabbarli str. 16,apt. 7**
**Tel:** (99 412) 418 11 09
**Fax:** (99 412) 596 20 38
**Toll Free:** 088 707 07 07
**e-mail:** jeyhun@transparency-az.org



*Mətbuat üçün əlaqə:* *Rəna Səfərəliyeva, İcraçı Direktor*
*Ceyhun Atayev, ALAC layihəsinin Baş Koordinatoru*


**23 Sentyabr 2008**

## Transparency İnternational Təşkilatının Regional Direktoru Mikloş Marşal ilə müsahibə

**1. Bəzən Korrupsiyanı Qavrama İndeksi (KQİ) beynəlxalq və digər təşkilatlar tərəfindən ölkələrdə gedən proseslərin qiymətləndirməsi üçün əsas kimi götürülür. Hökumətlər razı olmadıqları halda, onların cavabı nə ola bilər?**

Transparency International obyektiv təşkilatdır və KQİ haqqında çox açıqdır: biz həmişə vurğulayırıq ki, KQİ bir "xəbərdarlıq sistemi"-dir, "fotoşəkil"-ə bənzəyir və uzun müddətli irəliləyişi nəzarət etmək və qiymətləndirmək üçün hazırlanmır. KQİ istənilən ölkədə korrupsiya kimi ciddi təhlükə haqqında ictimaiyyətin məlumatlandırılması üçün bir vasitədir.

Biz KQİ-nin əhəmiyyəti ətrafında gedən müzakirələri alqışlayırıq! Biz həmçinin hökumətləri daha dərin tədqiqatlar aparılmağa və düzgün təhlillər etməyə həvəsləndirir və dəstəkləyirik; KQİ-nin yekunlarını "təkzib etmək" üçün mövcud olan antikorrupsiya siyasətini nəzərdən keçiririk! Korrupsiya ilə əlaqədar hər hansı bir ictimai müzakirə bu fenomeni daha yaxşı başa düşməyi kömək edər və gələcəkdə islahatlara gətirə bilər. KQİ bir hökm deyil və gələcəkdə islahatların aparılması üçün bir vasitədir. Beləliklə, əgər hökumət KQİ ilə razı deyilsə, o, "Transparency İnternational"- və başqa qiymətləndirmə aparan təşkilatlar, habelə ölkədəki Milli Bölməmiz ilə ictimai dialoqlarda iştirak etməli və birlikdə korrupsiya səviyyəsini azalda bilən anti-korrupsiya strategiyasını müəyyən etməlidir.

**2. Avropa və Mərkəzi Asiya ölkələri üzrə Regional Direktor kimi və bu regionu və Azərbaycanı Tİ-da olan digər şəxslərdən daha yaxşı tanıyan biri kimi, sizin şəxsi qavrama 2008-ci il İndeksi ilə üst üstə düşürmü?**

Həqiqətən də, Azərbaycan üzrə bu ilki İndeks mənim Azərbaycandakı vəziyyətlə olan şəxsi peşəkar rəyim ilə ziddiyyət təşkil edir və bu ziddiyyəti bizim Azərbaycandakı bölməmiz də hiss edir. Məni həmçinin, Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü (EİTİ), GRECO, Dünya Bankı və s. Kimi təşkilatların antikorrupsiya təhlilləri nəticəsində qəbul etdikləri irəliləyişlərin İndeksdə əks etdirilməyəsi təəccübləndirdi. Bununla belə, belə fərqin olması tamamilə normaldır. Dərin təhlillər geniş götürülmüş ümumi qavrayışlardan fərqli vəziyyəti göstərə bilər.

**3. Tİ-n bir qurum kimi, hər hansı, bu və ya digər ölkə üzrə müəyyən edilmiş İndekslə razılaşmaması mümkün ola bilərmi? Əgər belə olarsa, bu halda belə vəziyyəti dəyişmək üçün Tİ hansı vasitələrdən istifadə edə bilər?**

İndeks Tİ-la hər hansı mümkün maraqlar toqquşmasının yaranmaması üçün kənar akademik qurum- Almaniyanın Passau Universiteti tərəfindən həyata keçirilmişdir. Bu səbəbdən Tİ-in ölkələrin indeksləri üzərində heç bir nəzarəti yoxdur. Hazırkı vəziyyətdə baş verdiyi kimi, ola bilər ki, İndeks Tİ-in öz təcrübəsi ilə ziddiyyət təşkil etsin. Bir daha Tİ bununla bağlı çox açıqdır. Biz öz alətlərimizin davamlı olaraq təkmilləşdirilməsi prosesindəyik. Buna görə bir müddətdən sonra korrupsiya haqqında daha dərin məlumatlar vermək üçün digər indekslər, məsələn Qlobal Korrupsiya Barometri hazırlamışıq.

**4. İndeks ölkələr üzrə korrupsiyanın real səviyyəsini nə qədər real əks etdirir? O, ölkələr tərəfindən həyata keçirilən antikorrupsiya islahatlarının səviyyəsini ölçmək üçün istifadə edilə bilərmi?**

Öncədə qeyd etdiyim ki, İndeks tendensiyaları ölçmək üçün tərtib edilməmişdir. Bu digər müqayisəli sorğulardan korrupsiya ilə əlaqədar çıxarılmış məlumatların bir yerə toplanması nəticəsində əldə edilmiş qarışıq indeksdir. Nəticə etibarı ilə, bu "qlobal mənzərəni" göstərir və müəyyən ölkənin ildən ilə həyata keçirdiyi antikorrupsiya islahatların ölçülməsi üçün yaxşı alət deyildir. Bildiyiniz kimi, qavramalar dəyişdirilməsi həmişə vaxt aparır. Qavramalar, fikirlər həmişə real həyatda olan dəyişiklikləri bir qədər gecikmələrlə izləyir.

**5. 2008-ci ilin Azərbaycanın KQİ-dəki göstəricisi Dünya Bankının "Doing Business 2009" Hesabatı ilə ziddiyyət təşkil edir: həmin hesabatda Azərbaycan dünya üzrə aparıcı islahatçı kimi göstərilir. Bunu necə izah edə bilərsiniz?**

Bu doğurdan da bir ziddiyyətdir. Qavranmalarda bu cür fərq Azərbaycanda korrupsiya ilə bağlı vəziyyətin dərin təhlilini tələb edir. Nəyə görə iki ciddi sorğu ayrı-ayrı nəticələrə gətirib çıxarır? Cavabı yalnız hərtərəfli təhlil verə bilər; biz onu "Transparency İnternational" tərəfindən bir çox ölkədə artıq aparılan "Dövlət Davranış Etikasının Əsasları" tədqiqatı adlandırırıq. Belə bir təhlilin aparılmadığı üçün mən hər hansı fikir irəli sürməyə çəkinirəm. Mənim fikrimcə bu iki indekslər müxtəlif meyarları əsas tutur. Dünya Bankının indeksi işgüzar mühiti, bizim indeksimiz isə dövlət idarəetmə sektorunu əks etdirir. Dünya Bankının İndeksi Azərbaycanın iqtisadiyyatında çoxdan gözlənilən islahatlar barədə bir göstəricidir və ölkədə korrupsiyanın səviyyəsinin göstəricisi deyil. Azərbaycan dinamik iqtisadiyyata malikdir. Azərbaycanda biznesin asanlaşdırması üçün şərait yaradılır. Fikrimcə, məhz bu "Doing Business 2009" Hesabatında öz əksini tapıb.

KQİ-nin göstəriciləri daha da genişdir və əsasən dövlət sektorunda olan vəziyyəti əks etdirir. Biznesin ölkədə aparılmasının yaxşılaşdığı halda nəzarətçilər dövlət sektorun imkanlarına hələ də tənqidi yanaşırlar. Bu fakt, özəl sektorun dövlət sektorunu, yəni hökumət bürokratiyasını, effektivlikdə, şəffaflıqda və xidmət üslubunda qabaqlaması ilə izah olunur.

KQİ durğunluğunu - mən bunu durğunluq adlandırıram, çünki 0,2 bal azaltması statistik səhv nəticəsi də ola bilər və dövlət sektorunda islahatların davam edilməsi ehtiyacını bir daha da xatırlayır. KQİ-nin göstəricisinə baxmayaraq, mən güman edirəm ki beynəlxalq işgüzar mühit Azərbaycan hökumətinin islahatların həyata keçirilməsindəki səyinin davamlı olmasına inanır.

**6. Siz Azərbaycan Hökumətinin yerli və beynəlxalq vətəndaş cəmiyyəti institutları və Tİ ilə olan əməkdaşlığını necə qiymətləndirirsiniz? Bu əməkdaşlıq hansı səviyyədə İndeksə təsir edir?**

Bizim "fəlsəfə"yə əsasən bizim işimiz "adlandırmaq və utandırmaq" əməllərə aid edilə bilməz və bundan uzaqdır. Zənnimcə, Tİ-n beynəlxalq nüfuz qazanmasının əsas səbəblərindən biri bizim dəyişikliklərdə və islahatlarda maraqlı olmağımızdır. Bu baxımdan biz anti-korrupsiya islahatlarında əsaslı şəkildə maraqlı olan hər bir hökumət üçün konstruktiv əməkdaşıq. Biz İndeksi nəşr edirik, hansı ki, adətən xoş olmayan "xəbərdarlıq siqnalıdır", lakin əgər hökumətlər siqnalı eşidirlərsə, biz hökumətlə anti korrupsiya strategiyaları və islahatları üzrə ciddi dialoq aparmaq üçün hazırıq. Mən sizə deyə bilərəm ki, bizim Azərbaycan Hökuməti və xüsusilə hökumətdə anti-korrupsiya islahatlarına məsul olan şəxslərlə çox yaxşı peşəkar münasibətlərimiz var. Tİ təşkilatının Avropa və Mərkəzi Asiya ölkələri üzrə Regional Görüşünün keçən il Bakıda keçirilməsi faktı bizim əməkdaşlığımızın səviyyəsinin göstəricisidir. Bizim bu ölkədə çox yaxşı Milli Bölməmiz var, bu baxımdan bizim dövlət ilə əlaqələrimiz çox yaxşıdır. Həmçinin, bizim sədr, xanım Huqet Labelle, Bakıda olarkən sizin Prezidentlə görüşmüşdür. Mən yeni İndekslə əlaqədar məyusluğu başa düşürəm, lakin buna baxmayaraq, bu birgə işləmək üçün daha çox səbəb

yaradır!. Tİ, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının yaxşı işi haqqında yüksək fikirdədir və Hökumətdə əməkdaşlığa tam hazırdır.

**7. Sizcə Azərbaycan Hökuməti İndeksi yaxşılaşdırmaq üçün gələcəkdə nə etməlidir?**

Antikorrupsiya səyləri heç zaman tez irəliləyişlər və asan siyasi gəlirlər vermir. Korrupsiyaya qarşı mübarizə islahatları haqqında ciddi düşünənlər illər yox on illiklər üçün fikirləşməlidirlər. Azərbaycanla əlaqədar qeyd edilməlidir ki, hökumət geniş biznes mühitini, Azərbaycanın islahatların doğru yolunda olduğuna inandırmaq üçün daha çox iş görməlidir. Ekspert təhlillərinin müsbət siqnallar verdikləri zaman, bu nəticələrin geniş biznes icması tərəfindən daha yaxşı qavranılması müəyyən vaxt aparır.

İslahatların bir əsas aspekti ondan ibarətdir ki, islahatlara vətəndaş cəmiyyəti təşkilatları cəlb edilmişdir: Tİ Azərbaycan – qlobal Tİ hərəkatının yerli bölməsi – islahatlar prosesində iştirak etməyə hazırdır.

***"Şəffaflıq Azərbaycan" İB-in***
***İctimaiyyət və Mətbuat ilə Əlaqələr Şöbəsi***